| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 13.12.2016 |
| Qeydiyyat nömrəsi | 100/04/001 |
| Adı | Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2014-cü il 2 sentyabr tarixli 100/03/002 nömrəli qərarı ilə təsdiq edilmiş “Gətirilməsi (aparılması) qadağan olunmuş və ya məhdudlaşdırılmış malların götürülməsi haqqında” Protokolun forması”nda dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 24.12.2016 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 360.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201612134001 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 23.12.2016 |

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Kollegiyası “Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanının 6.7-ci bəndinin və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 iyun tarixli 646 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında Əsasnamə”nin 5.11.6-ci yarımbəndini rəhbər tutaraq

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2014-cü il 2 sentyabr tarixli 100/03/002 nömrəli qərarı ilə təsdiq edilmiş “Gətirilməsi (aparılması) qadağan olunmuş və ya məhdudlaşdırılmış malların götürülməsi haqqında” Protokolun forması”nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Hüquq şöbəsi (Sənan Muxtarov) bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Bu Qərarın icrasına nəzarəti özümdə saxlayıram.

**Kollegiyanın sədri** **Aydın Əliyev**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2016-cı il 13 dekabr tarixli 100/04/001 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi Kollegiyasının 2014-cü il 2 sentyabr tarixli 100/03/002 nömrəli qərarı ilə təsdiq edilmiş “Gətirilməsi (aparılması) qadağan olunmuş və ya məhdudlaşdırılmış malların götürülməsi haqqında” Protokolun forması”nda edilmiş dəyişikliklər:**

12-ci hissənin dördüncü abzasının birinci cümləsində “xüsusi icazə” sözləri “lisenziya və ya icazə sənədi”

sözləri ilə, “xüsusi icazəsi” sözləri “belə sənəd” sözləri ilə, ikinci cümləsində “xüsusi icazə” sözləri (birinci halda) “lisenziya və ya icazə sənədi” sözləri ilə, “xüsusi icazə” sözləri (ikinci halda) “lisenziya və ya icazə” sözləri ilə əvəz edilsin.